# Şəhid polkovnikin çempion oğlu



**Qarabağda antiterror tədbirləri zamanı qəhrəmancasına şəhid olan polkovnik-leytenant Əkrəm Şadmanovun oğlu Araz Şadmanzadə uzaq Avstraliyanın Sidney şəhərində keçirilən Beynəlxalq Riyaziyyat Olimpiadasının çempionu olub, Vətənə qızıl medalla qayıdıb.**

Xəbəri eşidər-eşitməz Sidneyə zəng vurduq. Arazın anası Gülşən Rəhimova ilə əlaqə saxladıq. O bildirdi ki, dünyanın dörd bir yerindən gələn 64 iştirakçı arasında təkcə Araz Şadmanov 1 saatlıq yarışmanı 18 dəqiqə 22 saniyəyə bitirdiyi üçün fərqlənərək qızıl medal qazanıb:

– Araz ötən ilin dekabrında keçirilən IMEC Onlayn Riyaziyyat Olimpiadasında qızıl medal qazanaraq, Sidneyə vəsiqə əldə etmişdi. Rəhmətlik Əkrəm çox istəyirdi ki, övladlarının uğur səsi dünyanın hər tərəfindən eşidilsin. Arazın olimpiadalarda iştirak etməsinə dövlətin dəstəyi böyük oldu. Sidneyə gəlişimizin xərclərini Dövlət Sosial Müdafiə Fondu ilə “McDonald's” ödədi.

**Olimpiadanın qəhrəmanı Araz Şadmanzadə da sevinc hisslərini bizimlə bölüşdü:**

– Aşağı siniflərdə oxuyanda şagirdlərin olimpiadalarda çıxışı, medal qazanmaları həmişə diqqətimi çəkib və istəmişəm ki, mən də elə olum. Hələ atama sağlığında demişdim ki, mən də qızıl medal alıb xarici universitetə imtahansız qəbul olacağam. Nəhayət ki, o gün yetişdi – qızıl medal aldım. Verilən vaxtdan da tez bir müddətə sualları cavablandırdım. Bunun üçün mənə 800 dollarlıq “oyun seti” də hədiyyə etdilər. Qalibiyyətim barədə Azərbaycanla yanaşı, Türkiyə və digər ölkələrin kütləvi informasiya vasitələrində yazılar dərc olundu. Ölkəmizdən olimpiadada iştirak edən digər 8 nəfər də müxtəlif medallar qazandı. Azərbaycanın bayrağını dalğalandırmağımızla fəxr edirik. Mənsə atama verdiyim sözü tutduğum, onun arzusunu yerinə yetirdiyim üçün özümü xoşbəxt hesab edirəm.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Xalq qəzeti .- 2025.- 18 aprel (№ 76).- S.10.